## İstehlak bazarında qiymətlərin dəyişməsi haqqında

2024-cü ilin iyul ayında istehlak qiymətləri indeksi 2023-cü ilin iyul ayına nisbətən 102,7 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 102,0 faiz, qeyri-qida məhsulları üzrə 101,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 104,3 faiz təşkil etmişdir.

2024-cü ilin iyul ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,9 faiz, yanvar-iyul aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 101,0 faiz təşkil etmişdir.

**İstehlak qiymətləri indeksi, faizlə**

| | 2024-cü ilin iyul ayı | | 2024-cü ilin yanvar-iyul ayları |
|---|---|---|---|
| | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq ayına nisbətən | 2023-cü ilin yanvar-iyul aylarına nisbətən |
| **Cəmi məhsullar və xidmətlər** | **100,9** | **102,7** | **101,0** |
| qida məhsulları, içkilər və tütün məmulatları | 100,2 | 102,0 | 99,7 |
| qida məhsulları | 100,2 | 101,7 | 99,3 |
| spirtli içkilər | 100,2 | 103,4 | 102,2 |
| tütün məmulatları | 100,0 | 108,1 | 109,6 |
| qeyri-qida məhsulları | 100,8 | 101,7 | 101,3 |
| ödənişli xidmətlər | 102,0 | 104,3 | 102,7 |

***İstehlak qiymətləri indeksi, əvvəlki ilin müvafiq ayına nisbətən, faizlə***




2024-cü ilin iyul ayında qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,2 faiz, yanvar-iyul aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 99,7 faiz təşkil etmişdir.

***2024-cü ilin iyul ayında qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi, məhsul qrupları üzrə, əvvəlki aya nisbətən, faizlə***




Cari ilin iyul ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma qoyun və toyuq ətinin, kolbasa məmulatlarının, yumurtanın, kərə və zeytun yağlarının, limonun, albalının, gilasın, göyərtinin, pomidorun, xiyarın, göy lobyanın, ucuzlaşma isə günəbaxan və qarğıdalı yağlarının, armudun, alçanın, gavalının, əriyin, şaftalının, qarpızın, yemişin, çiyələyin, şirin bibərin, badımcanın, süfrə çuğundurunun, kartofun, soğanın qiymətlərində müşahidə olunmuşdur. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

2024-cü ilin iyul ayında qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,8 faiz, yanvar-iyul aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 101,3 faiz təşkil etmişdir. İyul ayında əvvəlki ayla müqayisədə qeyri-qida mallarından bahalaşma “Aİ-92” markalı avtomobil benzininin, dizel yanacağının, zərgərlik məmulatlarının, ucuzlaşma isə “Aİ-95” markalı avtomobil benzininin qiymətlərində müşahidə olunmuşdur. Digər qeyri-qida mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

2024-cü ilin iyul ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 102,0 faiz, yanvar-iyul aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 102,7 faiz təşkil etmişdir. İyul ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma əsasən bərk məişət tullantılarının daşınması, metro, avtobus və taksi nəqliyyatı ilə sərnişindaşıma, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Əlaqə telefonu: 377-10-70 (22-55)